# HEYDƏR ƏLİYEV İRSİNDƏ MƏKTƏB KİTABXANALARININ MAARİFLƏNDİRİCİ MİSSİYASI VƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİ PERSPEKTİVLƏRİ

***Aynur Azər qızı Ələsgərova***

*Bakı Dövlət Universiteti,*
*magistrant*
*alesgerovaynur@mail.ru*

***Açar sözlər:*** *Heydər Əliyev irsi, məktəb kitabxanaları, təhsil siyasəti, rəqəmsal texnoologiyalar, maarifçilik*

***Ключевые слова:*** *Наследие Гейдара Алиева, школьные библиотеки, образовательная политика, цифровые технологии, просвещение*

***Keywords:*** *Heydar Aliyev's legacy, school libraries, educational policy, digital technologies, education*

**Xülasə:** Bu tezisdə Heydər Əliyevin maarifçilik siyasəti çərçivəsində məktəb kitabxanalarının inkişafına verdiyi töhfələri araşdırılır. Eyni zamanda, müasir dövrdə bu siyasətin davamı kimi məktəb kitabxanalarında rəqəmsal texnologiyaların – interaktiv multimedia vasitələrinin, virtual sərgilərin və rəqəmsal resursların tətbiqi perspektivləri təhlil olunur.

**Резюме:** В данном тезисе рассматривается вклад Гейдара Алиева в развитие школьных библиотек в рамках его образовательной политики. В то же время анализируются перспективы применения цифровых технологий - интерактивных мультимедийных средств, виртуальных выставок и цифровых ресурсов - в школьных библиотеках как продолжение этой политики в современную эпоху.

**Summary**: This thesis examines the contributions of Heydar Aliyev to the development of school libraries within the framework of his educational policy. At the same time, the prospects for the application of digital technologies - interactive multimedia tools, virtual exhibitions, and digital resources - in school libraries as a continuation of this policy in the modern era are analyzed.

Ümummilli lider Heydər Əliyevin Azərbaycan təhsil sisteminin formalaşmasındakı və inkişafındakı müstəsna rolu xüsusi əhəmiyyət kəsb edir. Heydər Əliyevin isə bu sahəyə olduqca həssas münasibət və diqqət ilə yanaşması əsassız deyildi. Heydər Əliyev elmin və təhsilin inkişafına milli dövlət quruculuğu prosesinin əsas hissəsi kimi yanaşır, xalqının intellektual səviyyəsinin yüksəldilməsini əsas prioritet məsələ hesab edirdi. Heydər Əliyevin milli dövlətçiliyin möhkəmləndirilməsi, milli ideologiyanın formalaşdırılması və Azərbaycanın müstəqilliyinin qorunması istiqamətində gördüyü işlər, onun elmi, ideoloji və nəzəri fəaliyyətləri ilə sıx bağlı olmuşdur [3].

Heydər Əliyev inkişaf proqramları vasitəsilə ölkəmizi qabaqcıl sənaye, kənd təsərrüfatı, mədəniyyət, təhsil respublikasına çevirməyə qadir olmuşdu. O, kitabı, kitabxananı xalqın mənəvi sərvəti hesab edir, eyni zamanda gənc nəslin formalaşmasındakı rolunu xüsusi vurğulayırdı. Bu baxımdan, məktəb kitabxanaları Heydər Əliyevin irsində maarifçilik işinin təməl sütunlarından biri kimi qiymətləndirilməkdədir. Qeyd etmək lazımdır ki, Azərbaycan Heydər Əliyevin rəhbərlik etdiyi illərdə həm Sovet İttifaqı, həmçinin müstəqillik dövründə tam şəkildə təhsilli insanlar diyarına çevrilmişdir.

Kitabxanalar yalnız kitab saxlamaq məkanı deyil, həm də bilik və düşüncə mərkəzi kimi nəzərdən keçirilirdi. Onun hakimiyyəti dövründə məktəb kitabxanalarının fondu genişləndirilmiş, müasir ədəbiyyatla zənginləşdirilmiş, müəllim və şagirdlər üçün açıq və əlçatan bir mühit yaradılmışdır.

Heydər Əliyevin irsində məktəb kitabxanaları sadəcə informasiya mənbəyi deyil, həm də vətənpərvərlik hissinin, milli-mənəvi dəyərlərin aşılanması və şagirdlərin dünyagörüşünün formalaşdırılması baxımından mühüm vasitə kimi dəyərləndirilir.

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı təhsil və informasiya sahələrinə də yeni imkanlar yaradır. Rəqəmsal texnologiyalar məktəb kitabxanalarının funksional imkanlarını genişləndirir, istənilən vaxt, istənilən yerdə informasiyaya çıxış imkanı əldə etməyi mümkün edirdi. Perspektivdə isə bu istiqamətdə aşağıdakı yeniliklər həyata keçirilə bilər:

• Məktəb kitabxanalarının elektron kataloq sistemləri ilə təchiz olunması;

• Şagirdlərin fərdi oxu profilinə uyğun rəqəmsal resursların tövsiyə olunması;

• Süni intellekt və avtomatlaşdırılmış axtarış alətləri vasitəsilə informasiya əldəetmə prosesinin sadələşdirilməsi.

Rəqəmsal dövrün reallıqları göstərir ki, məktəb kitabxanalarının fəaliyyəti artıq ənənəvi çərçivələrdən çıxaraq innovativ yanaşmalarla zənginləşdirilməlidir. Bu, bir tərəfdən təhsil sisteminin rəqəmsallaşma strategiyasına uyğunluq tələb edir, digər tərəfdən isə müasir şagirdlərin texnologiya ilə yaxın münasibətini nəzərə almağı zəruri edir.

Heydər Əliyevin elmi-intellektual inkişafla bağlı baxışları bu gün rəqəmsal transformasiyanın zəruriliyini əsaslandıran ideoloji dayaq rolunu oynayır.

Məktəb kitabxanalarında rəqəmsal texnologiyaların tətbiqi tədris prosesinə birbaşa təsir göstərməklə yanaşı, şagirdlərin informasiya savadlılığının inkişafına, tədqiqat bacarıqlarının formalaşmasına və müstəqil öyrənmə vərdişlərinin gücləndirilməsinə də xidmət edir. Xüsusilə, süni intellektin və interaktiv sistemlərin tətbiqi kitabxana istifadəçilərinə fərdi yanaşmanı təmin edir, təhsil prosesini daha məqsədyönlü və səmərəli edir. Eyni zamanda, kitabxanaların rəqəmsallaşdırılması müəllimlər üçün də geniş imkanlar açır. Müasir pedaqoji yanaşmaların tətbiqində elektron resurslardan istifadə olunması, dərs prosesinin multimedia vasitələri ilə zənginləşdirilməsi, metodik vəsaitlərin onlayn rejimdə əldə edilməsi tədrisin keyfiyyətinə müsbət təsir göstərir.

Heydər Əliyevin milli təhsil siyasəti, xüsusilə də onun kitab və kitabxana ilə bağlı fikirləri bu gün Azərbaycan məktəblərində təhsilin humanitar əsaslarının möhkəmlənməsində mühüm əhəmiyyət daşıyır. O, hər zaman vurğulayırdı ki, təhsil təkcə bilik verməklə kifayətlənməməli, eyni zamanda vətəndaş yetişdirməlidir. Bu baxımdan, məktəb kitabxanalarının rolu yalnız tədrisə deyil, həm də şəxsiyyətin formalaşmasına yönəlmiş tərbiyəvi funksiyalarla da əlaqələndirilməlidir. Heydər Əliyevin ideyaları əsasında formalaşan təhsil strategiyaları bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilməkdədir.

**Ədəbiyyat**

1. *Xələfov A.* Heydər Əliyev və Azərbaycanda kitabxana işi. - Bakı. Azərnəşr, 2006.- 312 s.

2. *Səfərova, L.* "Oxu Mədəniyyəti və Məktəb Kitabxanası".- Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı, 2020.

3. *Mahmudov Y.* Heydar Aliyev personality in the history of Azerbaijan. Baku, Tehsil, 2002. Heydar Aliyev guarding our cultural heritage. Book II. Baku, 2001.

4. *Husseinova I.* Builder of the independent Azerbaijani state. Baku, Tehsil, 2004.

5. *Khudiyev N.M.* Heydar Aliyev and Azerbaijani Language. Baku, 1997. iccia.com/sites/defanet/files/library/files/tehsil_elm

6. Taking a Closer Look at the School Library Resource Centre Self-Evaluation using Performance Indicators. SOEID/SCCC/SLA/SLIC, 1999.

7. https://en.wikipedia.org/wiki/School_library